# Elektron mühitdə gənc nəslin təhlükəsizliyinin təmin edilməsi problemləri

Rəsmiyyə Mahmudova[1], Sabirə Allahverdiyeva[2]
[1,2]AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
*[1]training_center@iit.ab.azç, [2]sabiraas@list.ru*

**Xülasə - Məqalədə elektron mühitdə uşaqların və yeniyetmələrin İnternet təhlükəsizliyinin təmin edilməsi problemləri dünyanın müxtəlif ölkələrində bu məsələyə aid yanaşmalar araşdırılır. Elektron mühitdə uşaqların təhlükəsizliyinin təmin olunması üçün təkliflər verilir.**

***Açar sözlər – elektron mühit, təhlükəsiz İnternet, uşaqların təhlükəsizliyi, təhlükəsiz İnternet günü***

## I.GİRİŞ

Ölkəmizdə informasiya cəmiyyətinin qurulması, İKT-nin bütün sferalara geniş tətbiq edilməsi istiqamətində sistemli fəaliyyət aparılır. Bununla bağlı bir sıra qanunlar, dövlət proqramları qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi üçün bir çox istiqamətdə işlərin aparılması nəzərdə tutulmuşdur [1]. Elektron mühitdə məlumatların qorunması, ölkənin informasiya məkanının təhlükəsizliyinin təmin olunması, İKT-dən istifadədə inamın artırılması, həmin sahəni tənzimləyən normativ-hüquqi bazanın inkişaf etdirilməsi, məlumatlandırma və maarifləndirmənin həyata keçirilməsi Milli Strategiyanın əsas məqsədlərindəndir.

E-dövlətin qurulmasında təhlükəsizlik məsələləri həlli vacib olan problemlərdən biridir. E-dövlətin həm öz elementləri, həm də xarici mühit informasiyanın təhlükəsizliyinin pozulmasına yönəlmiş çox saylı təhdidlərin mənbəyidir [2]. Elektron mühitdə informasiya mübadiləsi zamanı müxtəlif təhlükələrə rast gəlmək olar. Təhlükələrlə qarşılaşmanın çox hissəsi bu mühitdə daha az təcrübəsi olan uşaq və yeniyetmələrin payına düşür. Milli Strategiyada "uşaqların qanunazidd və təhlükəli kontentdən qorunması üçün "təhlükəsiz internet" mexanizminin işlənilməsi və tətbiqi" informasiya təhlükəsizliyinin təmin edilməsində əsas hədəflərdən biri kimi nəzərdə tutulmuşdur .

Araşdırmalar göstərir ki, uşaqların əksəriyyəti İnternetdə aldadılır, zorakılığa məruz qalır, texniki və sosial-psixoloji təhdidlərlə üzləşir. İnternetdə ziyanlı məlumatlarla zəngin səhifələrin mövcud olması, uşaq və yeniyetmənin bilməyərəkdən yaşa uyğun olmayan şəkildə və ya aqressiyanı, zorakılığı təbliğ edən mətnlərə rast gəlməsi ehtimalını çoxaldır. Sosial şəbəkələrdə, çat və forumlarda da yeniyetmələr təhqirlə, qeyri-etik davranışla qarşılaşırlar. Bu cür mənfi təsirlərə məruz qalan gənc üçün bütün bunlar bəzən onun həyatına təsir edən və silinməyən izlər buraxa bilən nəticələrə gətirib çıxarır.

Nəzərə almaq lazımdır ki, İnternetdə informasiya heç bir senzura, qadağalar, qaydalar və reqlamentlər olmadan yerləşdirilmişdir, ona görə də, uşaqlar hər dəfə İnternet resurslarından istifadə edərkən təhlükəli və zərərli informasiyalarla zəngin bir dünya ilə təkbətək qalır. Bu da onların mənəvi-psixoloji sağlamlığına təsir edir.

## II. İNTERNETDƏ UŞAQLARIN QARŞILAŞDIĞI TƏHLÜKƏLƏR

İnternet mühiti cinayətkar və ya pis niyyətli insanlar üçün əlverişlidir. Çünki ünsiyyət virtual şəxslə baş verdiyindən iştirakçılar fiziki olaraq təqdim olunmurlar, yəni virtual aləmdə müxtəlif virtual vəziyyətlərlə təqdim edilirlər. Cinayətkarlar uşaq psixologiyasını, maraqlarını, yaşa uyğun tələblərini öyrənir, gənc insanlarla daha artıq diqqət, qayğı və mehribanlıqla rəftar edərək, onlarla "dostluq" münasibətləri qurur və real həyatda görüşməyə cəhd edirlər.

Yeniyetmələrin çoxu veb gündəliklərə və ya bloqara, sosial şəbəkələrə şəxsi məlumatlarını - adı, ailəsi yaşayış yeri, oxuduğu məktəb, telefonları və s. haqqında informasiyaları yerləşdirirlər. Bununla da özlərinə qarşı hər hansı cinayət planının hazırlanmasına şərait yaratmış olurlar. Ən böyük sosial şəbəkə olan Facebook öz saytında 13 yaşdan yuxarı istifadəçilərə qeydiyyatdan keçməyə icazə verir. Amma buna baxmayaraq çox vaxt uşaqlar sosial şəbəkədə yuxarı yaş göstəricisi ilə qeydiyyatdan keçə bilirlər [3].

Cinayətkarlar İnternetdən bir təbliğat meydanı kimi istifadə edərək, çirkin planlarını həyata keçirmək üçün uşaq və yeniyetmələrdən istifadə edirlər. Məsələn, "İŞİD" terror qruplaşmasının üzvləri silahlıları arasında mübarizə aparan 10 yaşlı uşağın videosunu sosial şəbəkələrdə paylaşaraq, onu Suriya və İraq ərazisi uğrunda gedən döyüşlərdə həlak olmuş qəhrəman kimi təqdim edir [4]. Eyni zamanda, www.youtube.com saytında çağırış xarakterli videolar, filmlər yerləşdirərək yeniyetmələri bu qeyri-sağlam qrupa cəlb etməyə çalışırlar.

Yeniyetmələrin öyrənmək həvəsi onların İnternetə marağını daha da artırır. Bəzən özlərinə lazım olan və olmayan hər şey barəsində İnternetdə axtarışlar edir, yaxud şəbəkə oyunları oynayır, saatlarla vaxtlarını kompüter

arxasında keçirirlər. Belə uşaqlar get-gedə reallıqdan uzaqlaşır, davranışlarında fərqlər yaranır (aqressivlik, özünəqapanma və s.). Nəticədə ətrafa inamsızlıq, gündəlik rejimin pozulması və dərslərini zəif oxuma halları müşahidə olunur, normal həyatdan çox virtual aləmdə olmağa üstünlük verirlər. Onlar bu aləmə o qədər aludə olurlar ki, kompütersiz özlərini depressiyada hiss edir, sanki ondan asılı vəziyyətə düşürlər. İngilis psixiatrı Qenrietta Bouden Cons bu haqda deyir: "İnternet asılılığı xəstəliyinin ən geniş yayılmış forması internet–geymerdir - bu xəstələr sutkalarla internet oyunları arxasından durmurlar” [5].

İnternetdə yeniyetmələrin vaxt itkisinə səbəb olan, diqqət çəkən digər məqam oyunlarla bağlıdır. Bura həm də zərərli oyunlar daxildir. Məsələn, həqiqi pullarla oynanılan qumar oyunları yol verilməz bir vərdişdir. Qrup şəklində oynanılan populyar “Desert Storm” oyunu ABŞ-ın İraq sərhədlərində apardığı əməliyyatları, müqavimətçilərin yox edilməsini, “Knights of Temple” oyununun süjet xətti isə orta əsrlərdə Səlib döyüşləri zamanı qarşıya çıxan bütün müsəlmanları öldürmək üzərində qurulub [6]. İdeologiya xarakterli bu oyunlar şiddəti, zorakılığı, dini ayrıseçkiliyi təbliğ edir, yeniyetməni öz təsiri altına alaraq aqressiv hərəkətlər etməyə yönəldir, onlara qeyri-tolerantlığı və digər pis vərdişləri aşılayır. İntenetdə “əldə etdiyi” yad davranışlar uşaqların ətrafdakılarla ünsiyyət qurmasına təsir edir. Hər oyun istifadəçiyə mütləq bir mesaj verir. Yad mədəniyyətləri təbliğ edir, gənc nəsli milli adət- ənənələrdən uzaqlaşdırır.

Başqa bir təhlükə isə fırılaqçı və dələduz insanlar tərəfindən istifadə edilən metod - “phishing” texnologiyasıdır ki, bu metod vasitəsilə virtual dələduzlar kompüter istifadəçilərini tora salaraq, kredit kartı nömrələrini, parol və şifrələri, hesab nömrələrini, İnternet-bankçılığında giriş üçün istifadə olunan istifadəçi kodu və şifrələri əldə edərək onlara ziyan vururlar.

İnternetdən istifadə zamanı uşaqlar şəxsi təhlükələrlə yanaşı, həm də kompüterin təhlükəsizliyinə yönəlmiş müxtəlif təhlükələrlə qarşılaşırlar. Veb-səhifələri açarkən avtomatik yüklənən proqramlar, təklif olunan pulsuz proqram təminatlarının yüklənməsi zamanı avtomatik qurulan reklam proqramları, casus proqramlar və kompüter virusları bu cür təhlükələrdir.

## III. ELEKTRON MÜHİTDƏ UŞAQLARIN TƏHLÜKƏSİZLİYİNİN QORUNMASINA AİD NORMATİV SƏNƏDLƏR

Uşaqların müdafiəsi, onların təlükəsizliyinin qorunması üçün yalnız valideynlər, məktəb və müəyyən qurumların gördükləri işlər kifayət etmir. Problemin müəyyən dərəcədə həll olunması, uşaqlara qarşı olan zorakılıqların, kibercinayətlərin qarşısını almaq məqsədilə dünyanın bütün ölkələrində bununla bağlı qanunlar, kodekslər tətbiq edilir. Onlardan bəzilərini nəzərdən keçirək.

2006-cı ildə İtalyada “Cinsi istismar və internetdə uşaq pornoqrafiyası ilə mübarizəyə dair akt” qəbul edilmişdir.

27 iyul 2006-cı ildə ABŞ-da “Adam UOLŞ uşaq mühafizəsi və təhlükəsizliyi aktı” qəbul olunmuşdur. Məqsədi uşaqları istismar və zorakı cinayətlərdən qorumaq, uşaq pornoqrafiyasının qarşısının alınmasını bütün səviyyələrdə həyata keçirərək cinsi istismarçıların uşaqlara əlyetənliyinin qarşısını almaq, uşaqların internetdə təhlükəsizliyini təmin etməkdir. Qanunvericiliyə əsasən son 5 ildə bu tip cinayətlərdə iştirak etmiş şəxslərin barmaq izləri Milli Cinayətlər məlumat bazasına daxil edilir [7].

2011-ci ildə Ukraynada “Auditoriyası uşaqlar olan veb-resursların sahibləri üçün tövsiyələr” adlı sənəd qəbul olunmuşdur. Sənəddə uşaqların yaşını və digər psixofizioloji xüsusiyyətlərini nəzərə alaraq, uşaq veb-resurslarının yaradılması zamanı əməl edilməsi vacib olan tövsiyələr nəzərdə tutulur [8].

2011-ci ildə Rusiyada “Uşaqların sağlamlığına və inkişafına zərər verən informasiyadan qorunması” haqqında qanun qüvvəyə minmişdir. Qanuna əsasən, uşaqlarda qorxu, vahimə, çaxnaşma yaradan informasiya qadağan olunmuşdur. 30 noyabr 2013-cü ildə “Uşaqların informasiya təhlükəsizliyi konsepsiyası” forumu keçirilmişdir.

## IV. «TƏHLÜKƏSİZ İNTERNET PROQRAMI»

Uşaqların İnternetin zərərli təsirlərindən qorunması məqsədilə 13 noyabr 2008-ci ildə Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən “Kiberməkanda uşaqların müdafiəsi” (“Chilid Online Protection - COP”) təşəbbüsü irəli sürülmüşdür [9].

Avropa Birliyi ölkələrində uşaqların elektron mühitdə təhlükəsizliyinin təmin edilməsi məqsədilə 1999-cu ildə «Təhlükəsiz İnternet Proqramı» (Safer İnternet Proqramme) qəbul edilmiş və mərhələli şəkildə həyata keçirilmişdir [10].

Bu proqramlara uyğun olaraq Avropada əhalinin təlimləndirmə işini həyata keçirən, “İnsafe” (www.insafe.org) Təhlükəsiz İnternet Mərkəzləri Şəbəkəsi (TİMŞ) yaradılmışdır. TİMŞ gənclərin internetdən və mobil qurğulardan təhlükəsiz və məsuliyyətli istifadəsini təşviq etməklə səlahiyyətləndirilmişdir, 31 ölkədə fəaliyyət göstərir ki, onların bir çoxunda dəstək və qaynar xətlər vardır.

*Maarifləndirmə mərkəzləri(Awareness Centre)*- Səlahiyyətli insanları, valideynləri, himayədarları və müəllimləri gənc insanları İnternet istifadəsi zamanı yaranacaq potensial risklərlə bağlı məlumatlandırır və onların təhlükəsiz qalmasını təmin edir. Bu da maarifləndirmənin artırılması və təhsil materiallarının cəlb edilməsi, kampaniyaların və informasiya sessiyalarının təşkili ilə aparılır.

*Yardım xətləri (Helpline)* - İnternetdə təhlükəsiz davranışlarla bağlı gənc insanlara, valideynlərə, müəllimlərə və himayədarlara fərdi qaydada məlumat verir.

*Qaynar xətlər (Hotline)* - cəmiyyətdən qeyri-qanuni kontnetlər (terrora cəlbedilmə, vandalizm və nifrəti dəstəkləyən materiallar, narkotik vasitələrin qeyri-qanuni istifadəsi və s. ) və uşaqların cinsi istismarı ilə bağlı konkret faktlar haqqında məlumatları qəbul edir. Qaynar xətlər bu tip faktları araşdırır, əgər qeyri-qanuni kontent aşkarlanarsa, ölkənin qanunverici orqanlarına və İnternet xidməti provayderinə məlumat verilir və prosedur qaydada ölçü götürülür. Qeyri-qanuni kontent başqa bir ölkədə saxlanılırsa, bu haqda həmin ölkənin qaynar xəttinə məlumat verilir. Qaynar xətlər “İNHOPE” Beynəlxalq Qaynar Xətlər

Assosasiyası tərəfindən, www.inhope.org saytı vasitəsi ilə koordinasiya edilir [11]. Assosasiyaya Avropa İttifaqı üzvlərindən əlavə, Rusiya, Kanada, Tayvan, Avstraliya, Yaponiya, CAR, Cənubi Koreya Respublikası və ABŞ daxildir.

Proqram çəçivəsində müxtəlif tədbirlər həyata keçirilir. 2004-cü ildən başlayaraq ildə bir dəfə onlayn təhlükəsizlik üzrə Təhlükəsiz İnternet Forumu, gənclər vasitəsilə həmyaşıdlarını maarifləndirmək məqsədilə Gənclik Panelləri təşkil edilir. Hər il fevral ayının ikinci çərşənbə axşamı günü “Təhlükəsiz İnternet Günü”nü qeyd edərək, dövləti, kütləvi informasiya vasitələrini, qeyri-hökumət təşkilatlarını, ictimayəti və s. bir araya gətirir.

## V. UŞAQLARIN İNTERNET MÜHİTİNDƏ TƏHLÜKƏSİZLİYİNƏ AİD KONFRANSLAR

Uşaqların İnternetdə təhlükəsizliyi bir problem kimi elmi ictimaiyyətin də diqqət mərkəzindədir. Dünyada bununla bağlı tədbirlər, konfranslar, forumlar keçirilir, elmi-tədqiqat işləri, araşdırmalar aparılır.

Uşaqların İnternetdə təhlükəsizliyi məsələsi çox vaxt İnternet Təhlükəsizliyi konfranslarının tərkibində bir istiqamət kimi qoyulur. “Təhlükəsiz İnternet Proqramı” çərçivəsində Təhlükəsiz İnternet Forumu tərəfindən 2004-cü ildən başlayaraq ənənəvi olaraq hər il təhlükəsizlik üzrə onlayn konfrans təşkil edilir. Forumun mövzuları uşaq təhlükəsizliyindən mobil telefonlara, qeyri-qanuni kontentlərlə mübarizəyə, maarifləndirmənin artırılması mexanizmlərinə, elektron resurslar üçün yaş fərqləndərilməsinə və sosial şəbəkələrə, onlayn təhlükəsiz təhsilə kimi genişlənmişdir. 6-7 noyabr 2014-cü il tarixdə Brüsseldə “Growing Up Digitally” (“Rəqəmsal şəkildə böyümə”) adlı sonuncu 11-ci tədbiri keçirilmişdir [12].

2010-cü ilin fevralın 9-da, Beynəlxalq Təhlükəsiz İnternet günündə Moskvada İnternetin inkişafı və Dostluq Runet fondlarının dəstəyi ilə “Təhlükəsiz İnternet” adlı illik forum keçirilmişdir.

23 sentyabr 2013-cü ildə Monçestrdə “Rəqəmsal mühitdə uşaqların müdafiəsi” konfransı keçirilmişdir. Konfrans cəlb olunma problemləri (uşaq, valideyn və himayədarların mübarizəyə cəlb olunması), yeni proqramlar vasitəsilə çağırışlar, onlayn və offlayn mühitdə kibercinayətkarlara qarşı mübarizədə gənclərin birliyi, gənclərə tövsiyələrin və dəstəyin təmin olunması, onlayn şəkildə zərbə almış insanların cəmiyyətə qaytarılması problemlərini əhatə etmişdir. Konfrans CAPİTA (onlayn təhlükəsizliklə bağlı konfransların təşkilatçısı) tərəfindən təşkil edilmişdir [13].

12 noyabr 2013-cü il tarixdə Avropada dövlət və özəl sektorlar üçün konfransların təşkilatçısı Forum Europe (www.forum-europe.com) tərəfindən Brüsseldə “Onlayn mühitdə Uşaqların təhlükəsizliyi” konfransı keçirilmişdir. Bir çox ölkələrdən iştirakçılar qatılmışdır. Qanunvericilik, valideyn və uşaqların rəqəmsal ədəbiyyatla təmin olunması, uşaq istismarı və qeyri-qanuni kontentə qarşı beynəlxalq strategiyaya aid problemlər konfransın mövzusunu əhatə etmişdir [14].

Avstraliyada kofransların təşkilatçısı “The Informa Australia Pty Limited” tərəfindən 3-4 mart 2014-cü ildə Sidneydə “Uşaqların Onlayn Təhlükəsizliyi və Müdafiəsi” konfransı keçirilmişdir. Onlayn mühafizə üçün çərçivənin hazırlanması, İnternet təhlükələri və kibercinayətkarlıq, təhsil, onlayn monitorinq və data mərkəzlərin mühafizəsi, əqli mülkiyyət və kibercinayətkarlığın psixoloji təsirləri konfransın mövzularını əhatə etmişdir [15].

23 sentyabr 2014-ci ildə Londonda “Rəqəmsal mühitdə uşaqların mühafizəsi” konfransı keçirilmişdir. Konfransda inkişafda olan sosial media tətbiqetmələri bazarının riskləri, kurikulum proqramına internet təhlükəsizliyin daxil edilməsi, İnternetdən uyğunsuz istifadə, kiber-xuliqanlar və onlayn cinsi istismarın qarşısının alınması məsələlərinə baxılmışdır [16].

2012-ci il 6-9 noyabr tarixlərində Bakıda keçirilən İnternet İdarəçilik Forumunda uşaqların İnternetdə təhlükəsizliyi ilə bağlı problemlər diqqət mərkəzində olmuşdur.

Yuxarıda qeyd olunmuş bütün konfranslarda qoyulan məsələ və ya problemlər gənc nəslin təhlükəsizliyinə yönəlmiş və onun həlli yollarını araşdırmaqdan ibarətdir.

## VI. AZƏRBAYCANDA UŞAQLARIN İNTERNET TƏHLÜKƏSİZLİYİ İLƏ BAĞLI GÖRÜLƏN İŞLƏR

Ölkəmiz bütün sahələrdə olduğu kimi uşaqların İnternetdə təhlükəsizliyi probleminin həll olunması məsələsində də dünyada gedən proseslərdən geri qalmır və bu məsələ son illər ərzində cəmiyyətin, dövlətin və səlahiyyətli şəxslərin diqqətini cəlb etməkdədir. Mətbuatda, İnternet səhifələrində bu mövzu ilə bağlı yazılara rast gəlmək olur.

2008-ci ildə Azərbaycan İnternet Forumu, Təhsil Nazirliyi və Microsoft Şirkətinin Azərbaycandakı nümayəndəliyi tərəfindən “Uşaqların İnternetdə Təhlükəsizliyi” adlı layihə həyata keçirilmişdir. Layihənin məqsədi uşaqların İnternetdə təhlükəsizliyi və onların zərərli informasiyalardan qorunması ilə bağlı müəllimlər, valideynlər və uşaqlar üçün metodiki-informasiya dəstəyi göstərməkdən, ictimaiyyətin diqqətini bu problemə cəlb etməkdən ibarət olmuşdur.

Qeyd olunan qurumlar tərəfindən birgə həyata keçirilən layihə çərçivəsində “Uşaqların İnternetdə Təhlükəsizliyi” adlanan kitab nəşr olunmuşdur. Kitabda müasir dövrdə tədris vasitəsinə çevrilən İnternetdəki təhlükələrin olması haqqında məlumatlarla yanaşı valideynlər, müəllimlər və uşaqlar tərəfindən hansı addımların atılmasının vacibliyi haqqında tövsiyələr verilmişdir [17].

2012-ci ildən internet-servis-provayderi “Sazz”, AzEduNet (Azerbaijan Educational Network) təhsil şəbəkəsi ilə birgə “Məktəblilər üçün təhlükəsiz İnternet” layihəsi həyata keçirilir. Layihənin məqsədi uşaqları elektron mühitdə arzuolunmaz kontentdən – zorakılığı, ekstremizmi, ədəbsiz leksikanı özündə saxlayan resurslardan müdafiə etməkdir.

Azərbaycan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) dəstəyi ilə təhsil müəssisələrində filtrasiya sistemi tətbiq edilmiş, cəmiyyətdə informasiya təhlükəsizliyi ilə bağlı maarifləndirici tədbirlər və bəzi məktəblərdə treninqlər keçirilmişdir.

Azərbaycan İnsan Hüquqları Müvəkkilliyinin tövsiyələrinə uyğun olaraq BMT-nin "Uşaq hüquqları" Konvensiyasının qəbul olunmasının 25 illiyinə həsr olunmuş "Hər bir uşağın qayğısına qalaq!" aylığına qoşulmuşdur. 2014-cü ilin oktyabrın 20-dən noyabrın 20-dək davam edəcək bu aylıq çərçivəsində ölkədə uşaqların hüquqlarının, o cümlədən İnternetdə, kiberməkanda təhlükəsizliyin qorunması ilə bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur [18].

## VII. NƏTİCƏ

Gənclik dövrü şəxsiyyətin formalaşdığı, cəmiyyətdə düzgün mövqe tutub, ölkəsinə layiqli bir vətəndaş kimi yetişdiyi bir dövrdür. Müxtəlif təhdidlərin təsiri ilə bu prosses düzgün olmayan şəkildə gedərsə informasiya cəmiyyətinin formalaşmasına mənfi təsir edə bilər.

İnternetdəki təhlükələrdən qorunmaq üçün ailə-məktəb-dövlət birlikdə kompleks şəkildə bununla bağlı müxtəlif tədbirlər həyata keçirilməlidir. Buraya Milli Təhlükəsiz İnternet Mərkəzlərinin yaradılması; KİV vasitəsi ilə İnternetdəki təhlükələrin gənc nəslin nümayəndələrinə vurduqları psixoloji zərərlərlə bağlı təbliğatın aparılması; Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi; İNSAFE təşkilatı ilə əməkdaşlığın yaradılması; Uşaqlar üçün maarifləndirici broşürlərin hazırlanması; Valideynlər, müəllimlər üçün İnternetin təhlükəsizlik məsələlərinə dair vəsaitlərin, kitabçaların, bukletlərin hazırlanması və kursların təşkili; təhlükələrin yaratdığı pis nəticələri göstərən video-çarxların hazırlanması və s. aid edilə bilər. Orta məktəb proqramlarına İnternetin yaratdığı təhlükələr barədə dərslərin salınması, gənc nəslin nümayəndələrinə bunun necə vacib bir problem olduğunun təbliğ edilməsi olduqca mühümdür.

Uşaqlara İnternetdəki təhlükələrdən qorumaq üçün onların istifadə etdikləri kompüterə antivirus proqramları, "nəzarət sistemləri" yazılmalıdır, uşaqların müəyyən kontentlərə çıxışı məhdudlaşdırılmalıdır. Uşaqlara kompüterin faydaları, təhlükəli və arzuolunmaz cəhətləri izah edilməlidir.

Ən nəhayət, "Təhlükəsiz İnternet Günü"nün məktəblərdə qeyd edilməsi, məktəblilər arasında bu problemlərə həsr olunmuş müxtəlif müsabiqələr, görüşlər, seminarlar keçirilməsi müsbət nəticələrə gətirib çıxara bilər.

## ƏDƏBİYYAT


[1] www.president.az

[2] İmamverdiyev Y.N. E-dövlətin informasiya təhlükəsizliyinin idarə olunmasının konseptual modeli// İnformasiya Cəmiyyəti Problemləri, 2013,№1, s.20-25

[3] www.times.freq.ru

[4] www.azadxeber.az

[5] Богданова Д.А., Федосеев А.А. Внимание – Интернет.//Открытое образование. – №2,2010.-С.89-99

[6] www.tr-tr.facebook.com

[7] www.childwelfare.gov

[8] Mahmudova R., L.Tarverdiyev. Uşaq və yeniyetmələrin İnternetin zərərli təsirlərindən qorunması problemləri//H.Ə.Əliyevin 90 illik yubileyinə həsr olunmuş İnformasiya təhlükəsizliyi problemləri üzrə I Respublika elmi-praktiki konfransının əsərləri 17-18 may 2013, s.46-49

[9] www.itu.in

[10] www.saferinternet.org

[11] www.inhope.org

[12] www.scoop.it

[13] www.safenetwork.org.uk

[14] www.eu-ems.com

[15] www.10times.com

[16] www.iwf.org.uk

[17] www.encyclopaediaideas.wordpress.com

[18] www.mincom.gov.az